# Qadın rejissorların mükafat almadığı “Oskar” gecəsi

## Bred Pitt aktyorluq karyerasında ilk ”Oskar”ını başı üzərinə qaldırdı






**Fevralın 9-da dünyaca məşhur ”Oskar” mükafatlandırma gecəsi baş tutdu. İl ərzində çəkilən filmlər, dünya kinoteatrlarında reytinq yarışmasında qalib olanlar, sevilənlər, izlənənlər 92-ci dəfə baş tutan mərasimdə təqdim edildi. Nəticələrdən razı qalanlar da oldu, bunu tapşırıq, dini ayrı-seçkilik kimi qiymətləndirənlər də.**



Keçən ilki kimi, bu il də gecənin aparıcısı olmadı. Bu il də ”Oskar” söz-söhbətli, qalmaqallı, gündəm yaradacaq hadisələri ilə dünya film sektorunun və bu cameədə çalışanların diqqətini çəkdi. Hər il qırmızı xalıdan keçərək geyimləri ilə dünya mediasının diqqətini cəlb edən məşhurlar bu il də həmin gecəyə xüsusi hazırlaşmışdılar. Hollivuddakı ”Dolbi” teatrında baş tutan mərasimlə bağlı bəzi söz-söhbətlər hələ də səngimək bilmir.

Bir gecədə 4 ”Oskar” heykəli qazanan ”Parazit” filmi günə öz damğasını vurdu. Filmin Cənubi koreyalı rejissoru Bong Joon Ho ”ən yaxşı rejissor” mükafatını aldı. Bununla yanaşı, ”Parazit” ”ən yaxşı beynəlxalq film”, ”ən yaxşı orijinal ssenari” və ”ən yaxşı film” nominasiyalarında birinciliyə sahib oldu. İngilis dilində olmayan və 4 mükafata birdən layiq görülən ”Parazit”, daşıdığı bu özəlliklərlə hər kəsi təəccübləndirdi. Filmin rejissoru Bong Joon Ho mükafat alan ilk Cənubi koreyalı rejissor olaraq tarixə öz adını yazdırdı. Filmin rejissoru çıxışında ”Oskar” mükafatını təsis edənlərə, eyni zamanda münsiflər heyətinə təşəkkür etdi: ”Bütün rəqiblərimizə də burdan təşəkkür edirəm. Çünki onların da filmləri möhtəşəm idi. Belə bir müsabiqədə namizəd olaraq göstərilməyim belə mənim üçün böyük bir qürur idi. Əsla qazanacağımızı düşünməmişdim”.

Böyük britaniyalı müğənni və bəstəkar Elton Con ”ən yaxşı mahnı” nominasiyası üzrə ”Oskar” mükafatına layiq görüldü. Müğənni ”I'm Gonna Love Me Again” mahnısına görə mükafatlandırıldı. Həmin mahnı ”Roketmen” filmində səsləndirilib.

Gecədə ”ən yaxşı kişi aktyoru” nominasiyası üzrə qalibiyyətə son zamanlar haqqında çox danışılan ”Coker” filmində çəkilmiş Joaquin Phoenix layiq görüldü.

Gözlənilən nəticələrdən biri də Bred Pittin mükafata layiq görülməsi oldu. Aktyor ”Bir dəfə Hollivudda” filmindəki performansı ilə ”Oscar” mükafatı qazandı. Rejissor Kventin Tarantinonun ”Bir dəfə Hollivudda” filmi ən çox məşhurun bir arada olduğu ekran işidir. Burada Leonardo di Kaprio, Bred Pitt, Marqo Robbi, Al Paçino və Kurt Rassel kimi dünya şöhrətli sənətçilər yer alıb.

Bununla da Bred Pitt aktyorluq karyerasında ilk ”Oskar”ını almış oldu. Pitt bundan öncə ”Twelve Monkeys”, ”The Curious Case of Benjamin Button” və ”Moneyball” filmlərindəki rolları ilə ”Oskar” mükafatına namizəd olsa da, bu mükafata layiq görülməmişdi. Aktyor mükafat alarkən rejissora təşəkkür etməyi unutmadı: ”Bu mükafatı uşaqlarım üçün alıram”.

Gecədə ”ən yaxşı animasiya filmi” kimi ”Toy Story 4” qalib seçildi. ”Ən yaxşı qısa animasiya filmi” isə ”Hair Love” oldu. ”Ən yaxşı qısa film” ”The Neighbours' Window”, ”ən yaxşı sənədli film” ”American Factory”, ”ən yaxşı qısa sənədli film” isə ”Learning to Skateboard In A Warzone” seçildi. ”Ən yaxşı quruluşçu rəssam işi” ”Bir dəfə Hollivudda”, Barbara Linq, Nensi Hey filmləri layiq görüldü.

”Ən yaxşı kişi aktyoru” - Hoakin Feniks (”Coker” filmi), ”ən yaxşı film musiqisi” - ”Coker” filmində Hildur Qudnadouttirin ifası, ”ən yaxşı aktrisa” ”Cudi” filminə görə Rene Zellveqer, ”ən yaxşı operator işi” - ”1917” oldu.

”Ən yaxşı səs kombinasiyası” nominasiyasında birinciliyə ”1917”, Mark Teylor və Stüart Uilson layiq görüldülər. ”Ən yaxşı ikinci plan aktrisası” ”Evlilik hekayəsi” filmindəki obrazına görə Lora Dern, ”ən yaxşı kostyum dizaynı” ”Kiçik qadınlar”, Jaklin Durran, ”ən yaxşı sənədli film” ”American Factory”, ”ən yaxşı qısametrajlı sənədli film” ”Learning to Skateboard in a Warzone”, ”ən yaxşı qrim və saç düzümü” ”Qalmaqal”, Kadzu Hiro, Enn Morqan və Vivian Beyker, ”ən yaxşı qısametrajlı film” ”The Neighbors' Window”, Marşall Karri seçildilər.

Bu dəfə də mükafatlandırma gecəsində heç bir qadın rejissorun mükafat almaması söz-söhbətə səbəbə oldu. Hətta aktrisa Natalie Portman ”ən yaxşı rejissor” nominasiyası üzrə heç bir qadın namizədin olmamasına etiraz etmək məqsədi ilə qadın rejissorların adlarını üzərində daşıyan kostyumla gecəyə qatılmışdı. Onun bu geyimi böyük diqqət çəkdi. Aktyor Mark Ruffalo ”ən yaxşı sənədli film” mükafatını təqdim etməzdən əvvəl etdiyi çıxışında ”dörd prodüserin rejissor kreslosundakı qadınlar” olduğuna diqqət çəksə də, qadın aktrisalar onun fikri ilə razılaşmadılar.



”Oskar” film mükafatlandırma gecəsi hər nə qədər məşhur olsa da, seçimlər zamanı siyasi məsələlərin də böyük rol oynadığı hər zaman deyilib. Buna görə də bir sıra ölkələrin nümayəndələri bu mükafatlandırmanı o qədər də ciddi hesab etmədiklərini bildirirlər.

**Xəyalə Rəis**